# Mənalı ömür yolu



**Həyatda hər kəsin bir ömür payı, qət edə biləcək bir yolu var. Bu ömür yolu o zaman şərəfli olur ki, onu vətənə, xalqa həsr edəsən. Özü də qorxmadan, çəkinmədən, gözünü qırpmadan... Belə insanlar öz zəkası, alicənablığı, xeyirxahlığı ilə seçilirlər. Bu günlərdə 75 yaşı tamam olan şair, dramaturq, publisist, xoş əməl sahibi, kifayət qədər tanınan, sevilən Zaməddin Ziyad oğlu Həmişəyev də belə ziyalılarımızdandır.**

Zaməddin Ziyadoğlu el-obaya hörmət qazandıran, başucalığı gətirən insandır. Yaşının bu çağına baxmayaraq, bu gün də ictimaiyyətçi, yaradıcı insan kimi böyük əzmlə çalışır. Mənalı ömür yolu məhsuldar, son dərəcə zəngindir. Onun zəhmətkeşliyinə, sönməz həyat eşqinə, yüksək ziyalı mədəniyyətinə heyran qalmamaq olmur. Ömrünü 75 ildə hədər yaşamayıb Zaməddin Ziyadoğlu. Ona görə də geriyə baxıb xatırlanası məqamlar, söylənilesi sözlər kifayət qədərdir.

O, Qazaxın Xanlıqlar kəndindən həyata pərvazlansa da, əslində böyük məhəbbətlə, hər bir guşəsini odlu qəlblə tərənnüm etdiyi Azərbaycanımızın cəfakeş oğlu kimi sevildi, tanındı. Kənddən başlayan yol əzəmətli Bakıdan adlayaraq ağlına gətirə bilmədiyi möcüzələr adası, "dəmir çarıqlı" şəhər - Neft Daşlarına qədər uzandı. İnşaatçı kimi işə başlasa da, neftçi-şair kimi püxtələşdi. 1967-ci ildən nəşr olunan "Neft Daşları" qəzeti Zaməddin Ziyadoğlunun söz tribunasına çevrildi.

Neçə-neçə müxtəlif mövzulu şeirlər burada işıq üzü gördü. Özünün də inşaatçı kimi kifayət qədər əmək sərf etdiyi əfsanəvi Neft Daşları, burada çalışan fədakar insanlar - neftçilər, inşaatçılar, ayrı-ayrı peşə sahibləri yazılan ədəbi nümunələrin qəhrəmanlarına çevrildilər. İllər ötdükcə məsuliyyət daha da artdı. Respublika Neft və Qaz Sənayesi İşçiləri Həmkarlar İttifaqı Komitəsinin sədri, Ə.Əmirov adına NQÇİ-nin rəis müavini vəzifələrində çalışdı. Daşıdığı, icra etdiyi vəzifələr sadəcə onun ədəbi fəaliyyəti qarşısında həyat, istehsalat, təcrübə məktəbi rolunu oynadı.

Qazanılan təcrübələr "Neft Daşları", "Vışka" qəzetləri nəzdində yaratdığı, rəhbərlik etdiyi ədəbi dərnəklər də onun köməyinə gəldi.

Beləliklə, şair 17 kitab ortaya qoydu. "Vurğuna vurğun gəlin" dram əsəri mərhum rejissorumuz Rövşən Almuradlının quruluşunda S.Vurğunun ev-muzeyində Qaradağ Rayon Mədəniyyət Evinin səhnəsində tamaşaya qoyuldu. "Borçalı nisgili" Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının repertuarına salındı, "Turşməzə əhvalatlar" rəğbətlə qarşılandı.

Yaradıcılığında mövzu məhdudluğu olmayan Zaməddin Ziyadoğlunun qənaətinə görə, sözdən ulu, sözdən möhtəşəm heç bir qüvvə mövcud deyil. Söz hər şeydir. Hər kəsi tanıdandır, qəlbin tərcümanıdır. Ona görə də sözü bu qədər dəyərləndirən Zaməddin poeziyasının emosional təsir qüdrəti hüdudsuzdur və hər şeydən əvvəl bu emosionallıq təqdim edilən bədii materialın obrazlılığı ilə bağlıdır.

Zaməddin Ziyadoğlu böyük əqidə sahibi, şeirləri ilə insanlığı mənəvi kamilliyə, ədalətə, humanizmə çağıran lirik şairdir. Onun yaradıcılıq imkanları çox genişdir. Hansı ədəbi janra müraciət etməsindən asılı olmayaraq təbiilik, dil, ifadə zənginliyi, milli kolorit, axıcılıq onu istəyinə çatdırır. Qələmə aldığı şeirlərdə müqəddəs torpağımız, onun misilsiz təbiəti, xalqımızın ağrılı-acılı çağları, həsrəti, ayrılıq duyğuları, nəhayət, Zəfər günümüz, torpağımızın bütövlüyü, qələbəmiz tərənnüm olunur. Qara zurnalı, telli sazlı, sözlü-söhbətli, çal-çağırlı Qazax şairin ilham qaynağıdır. Bu gözəlliyi bütün varlığı ilə sevməsəydi yəqin ki, Zaməddin Ziyadoğlunun poeziya dünyası yaranmazdı. Qəribədir ki, şairin şeirlərində son zamanlar bəzən epiklik sezilir. Burada da yenə təbiətə, gözəlliyə, Vətənə, başlıcası isə insanlara, ulu yaradana sevgi əsas motivdir.

Şair Zaməddin Ziyadoğlu xoşbəxt taleli insandır. Mərhum Xalq yazıçımız İsmayıl Şıxlı, mərhum Xalq şairi Mirvarid Dilbazi, Nəriman Həsənzadə onun poeziyasına, dramaturgiyasına yüksək qiymət vermişlər. Ünvanına söylənilən sözlər, deyilən yüksək fikirlər eyni zamanda, Zaməddinə Azərbaycan Yazıçılar Birliyinə üzv olmağa zəmanət idi. Verilən bu zəmanətlər təsdiqləyir ki, şairin qandan axıb gələn, xalq yaradıcılığı düşüncələri ilə qovuşan, başdan-başa lirik notlar üstündə köklənən bədii yaradıcılığı orijinal təbii qələm məhsuludur.

Zaməddin müəllim dözümlü, cəsarətli insandır, 75 illik ömründə əməlləri ilə yaxşı ad qazanıb, heç vaxt hünəri ilə öyünməyib, halallığı, zəhməti, alın təri ilə təmiz adını qoruyub.

Sevilən, tanınan şairin yaradıcılığı, zəhməti dövlət tərəfindən layiqincə dəyərləndirilib. O, "Qızıl qələm" ali media mükafatına, çoxlu fəxri fərman, diplomlara, S.Vurğun və Ə.Şıxlinski və digər mükafatlarla təltif olunmuşdur. Haqqında məqalələr yazılmış, yaradıcılığına həsr olunmuş yazılar dərc edilmişdir. Onun üçün ən böyük mükafat isə xalq sevgisidir.

Zaməddin Həmişəyev ailəyə sadiq, mehriban həyat yoldaşı, qayğıkeş ata, nəvələrinə diqqətli babadır. Zaməddin müəllim bu gün də dövri mətbuatda mütəmadi olaraq çıxış edir, maraqlı yazıları ilə oxucularını sevindirir.

**Zahir QALİB.**

**Respublika.- 2022- ci il.- 17 aprel.- S. 7.**